# Hərbi məhsullarımız xaricdə böyük maraqla qarşılanır

Mayın 15-də Belarus Respublikası Dövlət Hərbi Sənaye Komitəsinin təşkilatçılığı ilə Minskdə "MILEX-2019" IX beynəlxalq silah və hərbi texnika sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, Sərgidə Müdafiə Sənayesi Nazirliyi də təmsil olunur və  ayrıca stenddə məhsullarını nümayiş etdirir. Hərbi təyinatlı məhsulların istehsalında daxili tələbatın ödənilməsi ilə yanaşı, ixrac imkanlarının genişləndirilməsini də nəzərə alan MSN "MILEX-2019"da əsasən ixracyönümlü məhsulları sərgiləyir. Bu məhsullara snayper tüfənglərini, avtomatları, hücum pulemyotlarını, qumbaraatanları, minaatanları, müxtəlif çaplı döyüş sursatlarını və s. göstərmək olar. Sərgidə müdafiə sənayesi nazirinin müavini Yəhya Musayevin rəhbərliyi ilə geniş tərkibli nümayəndə heyəti iştirak edir. Qeyd edək ki, "MILEX-2019" sərgisində Azərbaycan daxil olmaqla 10 dövlətdən 170 müdafiə sənayesi şirkəti məhsullarını nümayiş etdirir.

"MILEX-2019" IX beynəlxalq silah və hərbi texnika sərgisi çərçivəsində müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev Belarus Respublikasının Dövlət Hərbi-Sənaye Komitəsinin sədri Roman Qolovçenko, eləcə də MSN-in stendini ziyarət edən Serbiya müdafiə nazirinin maddi ehtiyatlar üzrə köməkçisi Nenad Miliradovic ilə görüşüb. Görüşlərdə ölkələrimiz arasında hərbi-texniki sahədəki mövcud əməkdaşlığın inkişaf etdirilməsi, yeni layihələrin həyata keçirilməsi istiqamətində fikir mübadiləsi aparılıb. Nenad Miliradovic sərgidə MSN tərəfindən nümayiş etdirilən məmulatları böyük maraqla izləyib. Nazir müavini Y.Musayev Belarus Respublikası Dövlət Hərbi-Sənaye Komitəsinin 15 illik yubiley medalı ilə təltif olunub.

Azərbaycan.- 2019.- 16 may.- S. 3.